# Azərbaycan idmançılarının qələbəsindən qürur duyuruq



Bakıda keçirilən I Avropa Oyunlarının həyəcanı getdikcə artır. Bütün dünya azərbaycanlıları, o cümlədən Belarusda yaşayan soydaşlarımız Azərbaycanda keçirilən möhtəşəm idman oyunlarını yaxından izləyir, müxtəlif yarışlarda ölkəmizi təmsil edən idmançıların parlaq qələbələrə imza atmasından qürur duyur. Azərbaycan idmançıları ümidləri ləyaqətlə doğruldur, hər günü bir tarixə, hər günü bir zəfərə çevirir, təmsilçilərimiz inamla yarışaraq xalqımıza sevincli anlar yaşadırlar.

Fərəhlə qeyd etmək olar ki, Avropa Oyunlarında qazanılan qızıl medalların sayına görə Azərbaycan Rusiya Federasiyasından sonra ikinci sırada gedir. Əlbəttə, bu rekord göstəricidir!

Avropa Oyunlarının Bakıda keçirilməsi çox təqdirəlayiq hadisədir. İdmanın müxtəlif növləri üzrə keçirilən gərgin oyunlarda Azərbaycanın təmsilçiləri qızıl, gümüş, bürünc medallarının sayını geçdikcə artırır, fəxri kürsünün yüksək pilləsində dayanırlar. Azərbaycanın dövlət himninin səsləndirilməsi demək olar ki, bütün dünyada yaşayan azərbaycanlılara qat-qat sevinc bəxş edir, bir sözlə, onlarda Vətən sevgisini daha da artırır.

2015-ci ildə I Avropa Oyunlarında ev sahibi kimi Azərbaycanın adı tarixə yazıldı. I Avropa Oyunları barədə fikirlər yüksək səviyyədədir. İdmançılarımız bu oyunlara yüksək səviyyədə hazırlaşmışlar. Hələ oyunların başa çatmasına xeyli vaxt var. Azərbaycan idmançılarının qazandıqları medalların sayı yetərincədir.

Milli Olimpiya Komitəsində hər gün keçirilən “Zəfər Günləri” tədbiri təqdirəlayiqdir. Burada idmançılarla təşkil olunan görüşlərdə səmimi bir mühitin yaranması insana zövq verir.

İlk Avropa Oyunlarında Azərbaycan idmançılarının parlaq qələbəsi, qalib idmançılara Prezident İlham Əliyev, Azərbaycanın birinci xanımı, “Bakı-2015” ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva tərəfindən təntənəli qaydada medalların təqdim olunması dünya azərbaycanlıları tərəfindən razılıqla qarşılanır. Bu ölkəmizin idman tarixinə qızıl hərflərlə yazılır.

Avropa Olimpiya Komitəsinin prezidenti Partik Hikki öz ad gününü Bakıda keçirdi. Özü də Avropa Oyunları keçirildiyi bir dövrdə Partik Hikkiyə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən “Şərəf” ordeni təqdim edilməsi Avropada idmanın, Olimpiya hərəkatının inkişafına təkan verəcəkdir.

Bu gün Belarusda yaşayan bir azərbaycanlı diaspor rəhbəri kimi sevincim, fərəhim köksümə sığmır. Azərbaycan idmanı, Azərbaycan idmançıları dünyanı heyran qoyur. Mənim özüm də idmançıyam, cüdo üzrə Avropa və dünya çempionuyam.



Bir daha qeyd etmək istərdim ki, Avropa Oyunları Azərbaycanın tarixində böyük bir hadisədir və ölkəmizin tarixinə yazılır. Oyunlar turizmin inkişafına, Qarabağ məsələsinin həllinə, Azərbaycanın sivil bir ölkə kimi dünyada tanınmasına böyük dəstək olacaqdır.


**Natiq BAĞIROV,**
**Belarus Azərbaycanlıları Konqresinin sədri, “Şöhrət” ordenli.**